


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 231 (24.368)

13 dekabr 2023-cü il, çərşənbə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib



Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 20 il ötür.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edib.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı İlham Əliyev Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla andı, məzarı üzərinə gül dəstələri qoydu.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

***

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqilliyimizin dönməz xarakter alması, milli şüurun dirçəlişi, iqtisadiyyatın inkişafı, ordu quruculuğu bu dövrün əsas mahiyyətini təşkil edir. Ümummilli Liderin Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç kim bacarmayıb. Məhz bu dahi şəxsiyyət ölkəmizdə qüdrətli ordu yaratdı, iqtisadiyyatı dirçəltdi, Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı.

Xalqımız Ulu Öndərin xilaskarlıq və quruculuq missiyasını unutmur və heç vaxt unutmayacaq. Ötən əsrin 90-cı illərində çox ağır, böhranlı vəziyyətə düçar olmuş Azərbaycan xalqı xilasına, bugünkü tərəqqisinə görə özünü Heydər Əliyevə borclu sayır. Hər il dekabrın 12-də və mayın 10-da Fəxri xiyabanda yaşanan böyük izdiham Ulu Öndərin xatirəsinə əbədi ehtiramdan xəbər verir. Azərbaycan xalqı Heydər Əliyev ideologiyasına da, ideallarına da sadiqdir. Bunun davam etdirilməsi sosial çağırışdır. Məhz bu çağırışa cavab olaraq Prezident İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamına əsasən Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə 2023-cü il ölkəmizdə “Heydər Əliyev İli” elan edildi.

Sərəncamda da qeyd olunduğu kimi, Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Bu gün Azərbaycan Ümummilli Liderin müəyyənləşdirdiyi yolla inamla irəliləyir. Xalqımız Ulu Öndərin layiqli davamçısı, Prezident, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə inanır və onu dəstəkləyir. Bu inam və dəstəyin, həmrəyliyin ən bariz nümunəsi 44 günlük Vətən müharibəsində qazanılan Zəfər, bu gün isə Qarabağda və Şərqi Zəngəzurda aparılan möhtəşəm bərpa və quruculuq işləridir.

Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndərin illər öncə böyük uzaqgörənliklə dediyi bu sözlər yada düşür: “Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olursa olsun”.

Dahi şəxsiyyətin bu arzusunu və vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev yerinə yetirdi, ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla bərpa olundu. Üçrəngli bayrağımız yenidən bütövləşən Vətən torpağında qürurla dalğalanmağa başladı.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Dövlətimizin başçısı, qalib sərkərdə İlham Əliyev böyük və müdrik xalqımıza bu il sentyabrın 19-da növbəti Qələbənin sevincini yaşatdı. Dövlət Bayrağımızı əzəli və əbədi torpaqlarımızda – Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda ucaltmaqla xalqımızın arzularını çin etdi. Müstəqil Azərbaycanın suverenliyi tam bərpa olundu.

Görkəmli dövlət xadimi Heydər Əliyev bu gün cismən aramızda olmasa da, onun parlaq ideyaları Azərbaycanın inkişaf yolunu işıqlandırmaqdadır. Ulu Öndərin yolu əzmlə davam etdirilir və ölkəmizi inamla irəli aparır. Bu gün ölkəmizin milli maraqlarını qətiyyətlə müdafiə edən Prezident İlham Əliyev uzaqgörən və titanik fəaliyyəti ilə Azərbaycanı dünya miqyasında, o cümlədən Türk dünyasında və bölgədə qüdrətli dövlətə, söz və nüfuz sahibinə, etibarlı tərəfdaşa çevirib.

Əminliklə söyləmək olar ki, Azərbaycan var olduqca Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayacaq və daha da inkişaf etdiriləcək.

**AZƏRTAC**

## Naxçıvanda Ümummilli Liderimiz Heydər Əliyevin xatirəsi yad edilib









Dekabrın 12-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Ali Məclisin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, xidmət və baş idarələrin, müəssisə və təşkilatların, ali məktəblərin, hərbi hissələrin

*Ardı 2-ci səhifədə*










nümayəndələri və qazilər müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoyub, Ulu Öndərin xatirəsini dərin ehtiramla yad ediblər.

Həmin gün Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Naxçıvan televiziyasının hazırladığı "Ömrün Naxçıvan aşırımları" filminə baxış olub.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan televiziyasının hazırladığı filmdə dahi rəhbərin siyasi və dövlətçilik fəaliyyətinin Naxçıvan dövrü, eləcə də Azərbaycanın gələcək inkişafı naminə göstərdiyi misilsiz xidmətlər işıqlandırılır. Televiziya filmi həmin dövrə aid unikal kadrlar və şahidlərin müsahibəsi əsasında hazırlanıb.

**"Şərq qapısı"**

# Ulu Öndərin əziz xatirəsi muxtar respublikanın rayonlarında böyük hörmətlə anılıb

## *Şərur rayonu*





Ümummilli Liderimiz Heydər Əliyev bütün dünya siyasətçilərinin qibtə etdiyi və öyrənmək istədiyi siyasi lider kimi tanınıb. Dahi şəxsiyyət respublikamıza rəhbərlik etdiyi illər ərzində Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından uğurla çıxarıb. Dahi rəhbərin müəyyənləşdirdiyi quruculuq siyasəti bu gün ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında yüksək ehtiramla həyata keçirilir. Muxtar respublikamız bu ideyaların işığında özünün yeniləşən inkişaf mərhələsindədir. Bunu Şərur rayonunun timsalında da görmək olar.

Ümummilli Liderin Azərbaycana rəhbərliyi dövründə Şərur rayonunda da genişmiqyaslı tikinti-quruculuq, abadlıq tədbirləri həyata keçirilib, onlarla məktəb, xəstəxana, mədəniyyət müəssisəsi tikilib istifadəyə verilib. Respublikamızda savadlı, bacarıqlı kadrların hazırlanması, mədəniyyətin və incəsənətin inkişafı, milli-mənəvi sərvətlərin, tarixi abidələrin qorunması, muzeylərin təşkili sahəsində Ümummilli Liderin həyata keçirdiyi ardıcıl tədbirlərdən də rayona xeyli pay düşüb. Bütün bunlara görədir ki, şərurluların qəlbində Ulu Öndərin xatirəsi həmişə uca tutulur.

Dekabrın 12-də şərurlular Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzindəki əzəmətli abidəsi önünə gələrək dahi rəhbərin xatirəsini yad edib, Ona hörmət və ehtiramlarını göstəriblər. Rayonun idarə və müəssisələrinin kollektivləri, əmək və müharibə veteranları, ictimaiyyət nümayəndələri dahi və unudulmaz rəhbərə sonsuz məhəbbət və ehtiramla görkəmli dövlət xadiminin siyasətini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birliklərini nümayiş etdiriblər.

## *Babək rayonu*



*Ümummilli Lider Heydər Əliyevin anım günü ilə bağlı Babək rayonunun idarə, müəssisə və təşkilatlarının nümayəndələri Ulu Öndərin Babək şəhərində yerləşən abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar. Daha sonra rayon Mədəniyyət Sarayında Ulu Öndərin anım günü ilə əlaqədar filmə baxış olub.*

Ölkəmizdə və muxtar respublikamızda Ulu Öndər Heydər Əliyev siyasi xəttinin davam etdirilməsi bütün sahələrin inkişafında özünü göstərib. Ümummilli Lider Heydər Əliyevin quruculuq yolunun uğurla davam etdirilməsi nəticəsi kimi dahi şəxsiyyət tərəfindən 1978-ci il oktyabrın 23-də yaradılmış Babək rayonu da bu gün Naxçıvan Muxtar Respublikasının abad yaşayış məntəqələrindən biridir. Bu gün fəxrlə demək olar ki, Babək rayonu inkişafın yeni mərhələsini yaşayır.

## *Ordubad rayonu*

*Ordubad rayonunda Ulu Öndər Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə rayon ictimaiyyəti, ziyalılar və gənclər iştirak ediblər.*

Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin Ordubad şəhərinin mərkəzində ucaldılan büstünü ziyarət edib, büstün önünə tər çiçəklər düzüblər.

Rayon Mədəniyyət Sarayında davam edən tədbirdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirələri bir dəqiqəlik sükutla yad olunub.



Tədbirdə çıxış edənlər bildiriblər ki, XX əsrin ən böyük şəxsiyyətlərindən, görkəmli siyasi xadimlərindən biri olan Ümummilli Liderimiz Heydər Əliyevin adı Azərbaycanın müstəqillik tarixi ilə qoşa çəkilir. Müasir tariximizin hər bir səhifəsi Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Özünün məqsədyönlü, yorulmaq bilmədən göstərdiyi siyasi fəaliyyəti ilə hələ sovetlər dönəmində Azərbaycanı geridə qalmış aqrar ölkədən inkişaf etmiş, çiçəklənən bir diyara çevirdi. O həm də tarixi bir şəxsiyyət kimi müasir Azərbaycan Respublikasının banisi, xilaskarı və qurucusu oldu.

Vurğulanıb ki, Ulu Öndərin "Azərbaycanın incisi" adlandırdığı Ordubad rayonunun sakinləri bu gün bu qədim diyarda qazanılan hər bir uğur üçün görkəmli dövlət xadimi Heydər Əliyevə minnətdardırlar.

## *Şahbuz rayonu*



Hər il dekabrın 12-si xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əbədiyyətə qovuşduğu gün kimi bütün azərbaycanlılar tərəfindən ehtiramla anılır. Ulu Öndərin yorulmaz dövlətçilik fəaliyyəti sayəsində ölkəmizin hər bir guşəsində olduğu kimi, Şahbuz rayonunda da hərtərəfli inkişafa nail olunub. Rayon əhalisinin firavan həyatı, yaxşı yaşayışı və torpağa bağlılığı Ulu Öndərin xalqımız qarşısındakı xidmətləri ilə bütünləşdikcə insanların qəlbində Heydər Əliyev ideyalarına sədaqət duyğuları daha da artır. Ulu Öndərin əbədiyyətə qovuşmasından 20 il ötsə də, ölkəmizin artan gücündən bəhrələnib öz firavan həyatını qurmuş şahbuzlular dahi şəxsiyyət Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərini həmişə minnətdarlıqla xatırlayırlar.

Elə bu hisslərlə də anım günündə rayon ictimaiyyəti görkəmli dövlət xadimi Heydər Əliyevin Şahbuz Rayon İcra Hakimiyyəti önündə ucaldılmış büstünü ziyarət edib, al qərənfillər düzüb, dahi şəxsiyyətin əziz xatirəsini yad edib. Sonra Şahbuz Rayon Mədəniyyət Sarayında təşkil edilmiş sərgiyə baxış olub, "Heydər Əliyev – dünyaya pəncərə" adlı film nümayiş etdirilib.

*Ardı 3-cü səhifədə*

## *Culfa rayonu*



Ulu Öndər Heydər Əliyevin Culfa şəhərində əzəmətlə ucalan büstünün önünə rayonun idarə, müəssisə və təşkilatlarının rəhbərləri və rayon ictimaiyyəti tərəfindən gül dəstələri qoyularaq dahi şəxsiyyətin əziz xatirəsi yad edilib. Sonra Culfa Rayon Mədəniyyət Sarayında keçirilən tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və Ümummilli Lider Heydər Əliyevin, eləcə də ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbirdəki çıxışlarda xalqımızın XX əsrdə yetişdirdiyi nadir tarixi şəxsiyyət olan Heydər Əliyevin milli şüurun oyanışında, formalaşmasında və möhürlənməsində misilsiz xidmətlərindən, Onun zəngin və mənalı həyat yolundan, Ulu Öndər Heydər Əliyevin dövlətçilik konsepsiyasının əsas strateji xəttinin Azərbaycançılıq ideyası təşkil etdiyindən danışıblar.

Sonda Ulu Öndərin həyatından və siyasi fəaliyyətindən bəhs edən "Əbədiyyətin ilk əsri" adlı film nümayiş olunub.

## Kəngərli rayonu



*Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin anım günü münasibətilə Kəngərli rayonunun mərkəzi Qıvraq qəsəbəsində ucaldılmış abidəsi rayonun idarə, müəssisə, təşkilat rəhbərləri və rayon ictimaiyyəti tərəfindən ziyarət edilərək önünə gül dəstələri qoyulub.*

Bu gün Kəngərli rayonunun yaradılması və hərtərəfli inkişafı, idarə, müəssisə və təşkilatlarının fəaliyyətə başlaması, iş yerlərinin açılması, bölgə iqtisadiyyatının gücləndməsi və inkişafı Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin uğurlu siyasətinin təcəssümüdür. Rayonda kompleks şəkildə aparılan tikinti-quruculuq tədbirləri, yaraşıqlı inzibati binalar, mədəniyyət və istirahət parkı, müasir memarlıq quruluşuna malik mədəniyyət sarayı, Ümummilli Lider Heydər Əliyevin abidəsi və digər quruculuq ünvanları rayona gözəllik bəxş edir. Rayonda son iyirmi ildə inkişaf və yüksəliş davamlı xarakter alıb, rifah halı daha da yaxşılaşdırılıb və onlarda sabaha güclü inam formalaşıb. Bütün bu uğurlara görə rayon əhalisi xalqımızın böyük oğlunun rayon mərkəzində əzəmətlə ucalan abidəsinin önünə gələrək gül dəstələri qoyur və qürurla anır.



Sədərək rayonunun yaranması və inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər ölkəmizə birinci rəhbərliyi dövründən başlayaraq sərhəd yaşayış məntəqəsinin inkişafını diqqətdə saxlamış, 1990-1993-cü illərdə isə Sədərək işğaldan qorunmuşdur. Milli Qurtuluşdan başlanan yol müstəqillik illərində rayonu müasir yaşayış məntəqəsinə çevirmişdir.

## Sədərək rayonu

Bu gün Heydər Əliyev siyasi xəttinə sədaqət Sədərək rayonunda davamlı inkişafı təmin etmiş, Heydərabad qəsəbəsində və kəndlərdə quruculuq işlərinin miqyası genişlənmiş, məskunlaşma artmışdır.

Dünən muxtar respublikanın bütün rayonlarında olduğu kimi, Sədərək rayonunda da Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad edilib. Anım mərasimində Sədərək Rayon İcra Hakimiyyətinin, rayonun idarə, müəssisə və təşkilatlarının rəhbərləri və sakinlər iştirak etmişdir. Tədbir iştirakçıları Ulu Öndərin adının əbədiləşdiyi Heydərabad qəsəbəsində əzəmətlə ucalan abidəsi önünə gül qoyub, Ümummilli Liderin xatirəsi dərin ehtiramla yad edilib.

**Xəbərlər şöbəsi**

2023-cü il "Heydər Əliyev İli"dir



# Ulu Öndər Heydər Əliyev
## milli dəyərlərin və tarixin yaddaşında

*Müasir Azərbaycan tarixinə nəzər saldıqda milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı prinsiplərinin banisi kimi Ulu Öndər Heydər Əliyevi görürük. Mənsub olduğu xalqın tarixi keçmişinə, mənəvi irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan Ulu Öndər deyirdi:* ***"Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhvali-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik".***

1993-cü ildə görkəmli dövlət xadimi Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra milli-mənəvi dəyərlərin inkişafında dönüş mərhələsi başladı, elm, təhsil, mədəniyyət və incəsənətin tərəqqisində böyük nailiyyətlərin bünövrəsi qoyuldu. Milli mənlik şüuru inkişaf etdi, xalqımızın öz tarixini, milli-mənəvi dəyərlərini və soykökünü dərindən öyrənməsi, Azərbaycançılıq məfkurəsinin inkişafı üçün əlverişli şərait yarandı, ziyalılar, elm, mədəniyyət, incəsənət, ədəbiyyat nümayəndələri milli ideya ətrafında səfərbər edildi. Ümummilli Lider milli-mənəvi dəyərlərin tərkib hissələrindən biri olan mütərəqqi dini dəyərlərin cəmiyyətdə özünə mühüm yer tutması üçün məqsədyönlü siyasət həyata keçirməyə başladı.

Ümummilli Lider Heydər Əliyev milli-mənəvi dəyərlərə Azərbaycançılıq ideyasının tərkib hissələrindən biri kimi yanaşmışdır. ***"Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq"***, – deyən dahi Öndər milli-mənəvi dəyərlərin inkişafını müstəqil dövlət quruculuğunun əsas istiqamətlərindən biri kimi qiymətləndirmişdir. Vətəninin, xalqının adını ucaldanlar, mənəvi aləmimizi zənginləşdirən, milli vəhdətimizi təmin edən dəyərlərimiz sayəsində var olmuşuq və bu gün də varıq. Hər bir şəxsiyyətin yetişməsində mühitdən də əvvəl ailənin böyük rolu var. Əbəs yerə ailəni kiçik dövlətə bənzətmirlər. Əsas dəyərlər ailədə formalaşmağa başlayır. Böyüklərə hörmət və ehtiram, xalqın milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə rəğbət öyrədilən ailə adlı müqəddəs ocaqda böyüyüb boya-başa çatan, təhsil aldığı məktəblərdə elmi biliklərə yiyələnməklə bərabər, həm də vətəndaşlıq ruhunda formalaşan gənclər ölkəsinin, xalqının adını daha da yüksəklərə qaldırırlar. Vaxt gəlir doğma Vətəni, xalqı da onlarla qürur duyur. Eynilə Vətən müharibəsində olduğu kimi…

Vətən müharibəsində Azərbaycan Ordusu təkcə düşmənlərinə deyil, bütün dünyaya qəhrəmanlığını, yenilməzliyini göstərdi. Otuz ilə yaxın Ermənistan silahlı qüvvələrinin işğalı altında qalan ərazilərimizi azad edən, yağı düşmənin işğalına son qoyan Azərbaycan oğulları igidliyin, cəsurluğun, vətənpərvərliyin simvolu oldular. Respublikamızda yaşayan bütün xalqlar, etnik qruplar bir amal, bir məqsəd ətrafında sıx birləşdilər. Milli mənsubiyyətindən, dilindən, dinindən asılı olmayaraq, bu ölkənin vətəndaşı olan hər kəs doğma Vətəni Azərbaycanın ərazi bütövlüyü naminə ayağa qalxdı. Göstərdilər ki, tolerantlıq və multikultural dəyərləri ilə bütün dünyaya nümunə olan Azərbaycanın qələbə və uğur dolu günləri bundan sonra da davam edəcək.

Milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, Azərbaycan dilinin inkişafı, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi və digər məsələlərin həlli dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Prezident cənab İlham Əliyev milli-mənəvi dəyərlər əsasında ölkəmizin müasirləşməsini nəzərdə tutaraq bildirmişdir: ***"Müasirlik, yenilik və eyni zamanda milli dəyərlərə, milli köklərə bağlılıq. Bugünkü Azərbaycanı təsvir edən bu ideya artıq hamıya bəllidir. Azərbaycan xalqı daim öz milli köklərinə bağlı xalq olmuşdur və bizim gələcək uğurlarımız da məhz bu amillərlə bağlıdır. Biz tarixi irsimizin, zəngin mədəni irsimizin əsasında müasir, güclü Azərbaycan qururuq".***

Heydər Əliyev Fondunun elm, təhsil və mədəniyyət sahəsində həyata keçirdiyi çoxsaylı layihələr milli-mənəvi dəyərlərimizin nəinki ölkəmizdə, bütün dünyada təbliğ olunmasında böyük əhəmiyyət daşıyır. Xalqımızın dünya mədəni irsinə bəxş etdiyi ən mühüm töhfələrdən biri olan muğam sənətinin yaşadılması, öyrənilməsi və gələcək nəsillərə çatdırılmasında Mehriban xanım Əliyevanın gördüyü işləri xüsusi qeyd etməliyik. Ötən illər ərzində fondun dəstəyi ilə xeyli sayda məscid bərpa olunaraq istifadəyə verilmişdir. Fondun milli-mənəvi dəyərlərin dünyada təbliği istiqamətində atdığı addımlar xalqımızın qədim mədəniyyət nümunələrini ermənilərin özününküləşdirməsi kimi mənfur niyyətlərinin qarşısını alır. Beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində fondun xətti ilə milli-mənəvi irsin qorunması sahəsində çoxsaylı layihələr həyata keçirilir ki, onları xalqımızın ziyalıları, mədəniyyət və incəsənət xadimləri yüksək qiymətləndirirlər.

Ölkəmizdə Ulu Öndər Heydər Əliyevin dini həmrəylik ideyaları və dövlət-din siyasəti muxtar respublikada da uğurla davam etdirilir. Ölkəmiz müstəqillik qazandıqdan sonra muxtar respublika ərazisində neçə-neçə məscid tikilib, yaxud yenidən qurulub və ya bərpa olunub.

Xalqımızın milli-mənəvi dəyərləri tarixi varislik prinsipinə əsaslanaraq inkişaf edir və onlar dünya mədəniyyətinin zənginləşməsində xüsusi yer tutur. Milli-mənəvi dəyərlərin qorunması və təbliği Azərbaycan dövlətinin apardığı siyasətin əsas istiqamətlərindən birini təşkil edir. Ölkəmizdəki mədəniyyətlərarası və dinlərarası dialoq milli-mənəvi dəyərlərin inkişafında böyük əhəmiyyət daşıyır. Azərbaycan dilinin, ədəbiyyatın və incəsənətinin inkişafı, adət-ənənələrin, mütərəqqi dini dəyərlərin ictimai həyatda özünə mühüm yer tutması milli-mənəvi dəyərləri zənginləşdirir. Xalqımızın milli-mənəvi irsinin dünyada təbliği ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsində mühüm rol oynayır. Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında 2022-ci il 29 sentyabr tarixli Sərəncamında da deyildiyi kimi: *"Xalqımızı vahid amal ətrafında birləşdirən Azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur".*

*Ölkəmizdə milli dəyərlərin qorunması istiqamətində həyata keçirilən tədbirlər xalqımızın bu dəyərlərə sadiqliyinin, Ulu Öndərin müqəddəs irsinə dərin hörmətin təzahürü, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin azadlıq və müstəqillik ideallarına, möhkəm milli bünövrəyə malik zəngin mənəvi irsinin təbliği işinə də böyük töhfədir. Ümummilli Lider Heydər Əliyevin dediyi kimi:* ***"Milli dəyərləri olmayan millət həqiqi millət, milli dəyərləri olmayan xalq həqiqi xalq ola bilməz. Bizim milli dəyərlərimiz əsrlərboyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Biz öz milli dəyərlərimizlə fəxr edirik".***

**Qızıltac ŞAHBAZOVA**
***Naxçıvan Müəllimlər İnstitutunun dosenti, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi***

## Ulu Öndərin anım gününə həsr olunmuş tədbirlər keçirilib



Azərbaycan dövlətinin qurucusu və memarı, müasir dövlətçiliyimizin xilaskarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin şəxsi heyəti Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib.

Daxili İşlər Nazirliyinin əməkdaşları dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildirərək abidə önünə gül dəstələri qoyublar.

* * *



Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Muzeyində Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə dahi liderin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə mədəniyyət nazirinin müavini Həsən Seyidov çıxış edərək Ulu Öndərin keçdiyi məsuliyyətli və şərəfli yolun, apardığı mübarizənin, qazandığı nailiyyətlərin hər birimiz üçün qürur mənbəyi, məktəb olduğundan bəhs edib, əbədiyaşar liderin mədəniyyətimizin inkişafı sahəsində müstəsna xidmətlərindən danışıb.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu Öndərin yoluna, Onun ideyalarına sadiqlik nümayiş etdirərək müstəqil dövlətimizi tarixinin ən qüdrətli dövrünə, xalqımızı ən böyük qələbəyə yetirdi.

Tədbir Heydər Əliyev Muzeyinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyevin "Ümummilli Lider Heydər Əliyev və qalib Azərbaycan" mövzusunda çıxışı ilə davam edib. Vurğulanıb ki, fenomenal şəxsiyyət harada, hansı vəzifədə çalışmasından asılı olmayaraq, hər zaman milli maraqları üstün tutur, SSRİ dövründə gələcəyin müstəqil dövlətinin təməlini yaradırdı.

Sonra tədbir iştirakçıları dünya şöhrətli siyasətçinin xalqımız və dövlətçiliyimiz qarşısındakı müstəsna xidmətlərindən bəhs edən "Xalqa bağışlanan ömür" filmini izləyiblər.

Anım tədbiri muzeyin ekzpozisiyasına baxışla sona çatıb.

* * *



12 dekabr – Ümummilli Lider Heydər Əliyevin anım günü ilə bağlı Naxçıvan Muxtar Respublikasının Turizm Departamentinin əməkdaşları Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərində ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, Ümummilli Liderin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Sonra Heydər Əliyev Muzeyində dahi şəxsiyyətin həyat və siyasi fəaliyyətini əks etdirən eksponatlarla tanışlıq olub. Baxış zamanı bildirilib ki, Heydər Əliyev Muzeyi Ümummilli Liderimizin həyat və fəaliyyətinin, elmi-nəzəri irsinin, Azərbaycançılıq ideologiyasının öyrənilməsi və gələcək nəsillərə çatdırılması kimi şərəfli missiyanı layiqincə yerinə yetirir.

**Xəbərlər şöbəsi**

***Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları “Şərq qapısı” qəzetində görəcəksiniz.***

# Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq



## Dünyanın ən yaxşı səfiri mədəniyyətdir

“Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq” rubrikasının növbəti qonağı Azərbaycan və Çexiya Yazıçılar ittifaqlarının üzvü, şairə-dramaturq Leyla Begimdir. 1971-ci il noyabrın 11-də Bakı şəhərində dünyaya göz açan Leyla xanım Azərbaycan Neft və Kimya İnstitutunu fərqlənmə diplomu ilə bitirib. 2010-2015-ci illərdə Almaniyanın Düsseldorf şəhərində Avropada ilk dəfə “Daşların poeziyası” və “Jafarov” adlı Azərbaycan zərgərlik brendini təsis edib. 2008-ci ildə ailə vəziyyətinə görə Çexiyanın Litomerice şəhərinə köçüb və burada ədəbi-ictimai fəaliyyətlə məşğul olub, “Natəvan” cəmiyyətini yaradıb. Leyla Begim Rusiyada və Praqada nəşr olunmuş 5 şeirlər toplusunun və çex dilində çapdan çıxan “Qarabağnamə” kitabının müəllifidir, rus dilində yazdığı şeirlər Rusiya və Bakının müxtəlif qəzet, almanax və bədii nəşrlərində dərc edilib. Sonetləri Milan Dvorak tərəfindən çex dilinə tərcümə edilərək “Tvar” bədii qəzetində nəşr olunan Leyla israilli ssenarist və rejissor Efim Abramovla birlikdə 4 pyes yazıb.



Yaradıcılığa bağlılığını belə ifadə edir: Bir şair və dramaturq kimi həmişə məni ən çox düşündürənlərdən yazmışam. Və məni narahat edən, düşündürən mövzu Qarabağla bağlı olub. Yazılan hər bir əsərim – şeir, pyes, hekayə, esse tələbata uyğun ortaya çıxıb. Əsərlərim müxtəlif dillərə tərcümə olunaraq çap edilib, kitablarım işıq üzü görüb, teatr səhnələrində tamaşalarım nümayiş olunub. Və zamanla mən Azərbaycan mədəniyyətinin nümayəndəsi kimi xaricdə haqq səsimizin ruporuna çevrilmişəm.

Beynəlxalq miqyasda ölkəmizin mədəniyyətini, incəsənətini layiqli şəkildə təbliğ edən Leyla xanımın ailə üzvləri, övladları da bu həmrəylik işində ən yaxın dəstəkçilərdir: Ailədə dörd uşaq böyüdürəm. Övladlarım da diaspor fəaliyyətində fəal iştirak edirlər. Oğlanlar beynəlxalq kikboksinq turnirlərində ölkəmizi layiqincə təmsil ediblər. Onlar dünya, Avropa və müxtəlif beynəlxalq turnirlərin çempionlarıdır. Rəhbərlik etdiyim “Natəvan” cəmiyyəti Çexiyada Azərbaycan və Azərbaycan ədəbiyyatı ilə bağlı mədəni layihələrin təbliği ilə məşğuldur. Cəmiyyət I Qarabağ müharibəsi zamanı, torpaqlarımızın işğalı dövründə yarandığı üçün bütün layihələr Qarabağ münaqişəsi, müharibə, Xocalı faciəsi həqiqətlərinin ədəbiyyat və teatr vasitəsilə çatdırılması ilə bağlı olub. Bu baxımdan düşünürəm ki, ədəbiyyat və teatr insanların şüuruna emosional təsir göstərmək üçün ən yaxşı vasitədir. 2017-ci ildən bəri biz bu sahədə Azərbaycanımızın haqq səsini ucaltmaq üçün kitabların nəşrinə təşəbbüs göstərmişik. İngilis, çex, macar, alman, rus dillərində “Qara qar çiçəkləri”, “Cry”, “İmmolatio”, “Qarabağ şikəstəsi” kitablarımız nəşr olunub.





Müsahibimiz deyir ki, layihələrimiz həm Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi, həm müxtəlif ölkələrin diasporları, həm də Çexiya, İngiltərə, Macarıstan, ABŞ, Rusiya, İsveç, İsraildəki səfirliklər tərəfindən dəstəklənib. Azərbaycanda üç teatr tamaşası nümayiş edilib, həmin səhnə əsərlərinə səfirliklərin və müxtəlif beynəlxalq təşkilatların nümayəndələri də baxıblar. Əslən Naxçıvandan olan, Azərbaycanın Xalq artisti, mərhum Vaqif Əsədovun quruluş verdiyi “Yarımçıq qalmış” tamaşası 2017-ci ildən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının repertuarına daxil edilib. “Natəvan” Cəmiyyətinin təşəbbüsləri həm xaricdə, həm də Azərbaycanda Mədəniyyət, Gənclər və İdman nazirlikləri, Heydər Əliyev Fondu tərəfindən dəstəklənib. Bütün bu layihələr Qarabağın işğalı dövründə həyata keçirilib. Ölkəmizin tarixi zəfəri ilə yekunlaşan 44 günlük Vətən müharibəsi zamanı isə “Natəvan” cəmiyyətinin təşəbbüsü ilə “Mənim ürəyim Şuşa” mahnı-klipini (bəstəkarı Almaniyada yaşayan Anar İbrahimovdur, sözləri isə mənə məxsusdur) hazırladıq. Layihə Heydər Əliyev Fondu və Bakı Media Mərkəzinin dəstəyi ilə həyata keçirildi və 8 noyabr 2020-ci il tarixdə mahnı və videoklip üç dildə televiziya və radio kanallarında, sosial şəbəkələrdə səsləndirildi. 44 günlük Vətən müharibəsi zamanı ərsəyə gələn videoklip həm də Böyük Qələbəmizin çırağı oldu. Bundan başqa, 2022-ci ildə Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar Londonda yaşayan istedadlı musiqiçimiz Emin Məcnunbəyli ilə “Remember” videoklipini hazırladıq və videoklip həmin il bir neçə ölkədə Xocalı şəhidlərinə həsr olunmuş tədbirlərdə səsləndirildi.

Leyla xanım qeyd edir ki, II Qarabağ müharibəsi dövründə azərbaycanlı şairənin və müharibə müxbirinin məhəbbətindən bəhs edən “Mən də səni sevirəm” hekayəsini yazdım. Bu hekayə 1-ci və 2-ci Qarabağ müharibələrinin ayrı-ayrı fraqmentlərini diqqətə çatdırır: sevgi və nifrət, müharibə və sülh, insanlıq və qeyri-insanilik, xoşbəxtlik və bədbəxtlik, həyat və ölüm... Bu hekayə digər əsərlərlə yanaşı, Azərbaycanın Çexiyadakı səfirliyinin dəstəyi ilə nəşr olunan “Qarabağnamə” toplusuna daxil edilib. Kitab çox məşhur çex tərcüməçisi Milan Dvorak tərəfindən tərcümə olunub, nəşrə Azərbaycanın Əməkdar rəssamı Elturan Avalovun qrafika işləri də daxil edilib. Ümumiyyətlə, “Natəvan” cəmiyyətinin bütün layihələri dünya azərbaycanlılarının, xalqımızın yaradıcı ziyalılarının birləşməsinə, həmrəyliyinə yönəlib. Cəmiyyətin məqsədi mədəni layihələr yaratmaq, hər bir layihənin həyata keçirilməsi üçün konsepsiya və müfəssəl plan hazırlamaqdır. İstənilən layihə insanlar tərəfindən təbliğ olunur. Uğurlu layihənin təminatı uğurlu insanlardır. Bu mənada, insan resurslarının düzgün seçilməsi də cəmiyyətimizin mühüm vəzifələrindən biridir.

Həmsöhbətimiz “Natəvan” cəmiyyətinin ölkəmizin musiqi mədəniyyətinin təbliği istiqamətində həyata keçirdiyi layihələrdən söhbət açaraq deyir ki, Zəfər Gününün birinci ildönümü ilə əlaqədar biz Praqada “Seven beauties towards Glory” adlı möhtəşəm konsert proqramı təşkil etdik. Azərbaycan poeziyası çex aktyorların, Azərbaycan klassik musiqisi Avstriyada yaşayan böyük musiqiçi Rəna Rzayevanın ifasında səsləndirildi. Çox qonaqlar bu günə kimi həmin konsertdən danışırlar. Ümumiyyətlə, biz hər bir təşəbbüsümüzü müxtəlif ölkələrdə yaşayan azərbaycanlıları birləşdirmək ideyası üzərində irəli sürürük. Bir-iki nümunə çəkə bilərəm: – İki layihədə mən bir şair kimi israilli ssenarist və rejissor Yefim Abramovla (Azərbaycanda doğulub, böyüyüb) əməkdaşlıq etmişəm. Nəticədə, səhnələrdə canlanan iki pyes, ayrı-ayrı ölkələrdə işıq üzü görən, müxtəlif dillərdə danışan iki kitab dünyaya gəldi. Daha bir layihəni isə yazıçı, publisist Günel Anarqızı ilə birgə “Cry” adlı kitabı ərsəyə gətirməklə həyata keçirdik. Kitabın üz qabığına fransız rəssamın Xocalı faciəsini əks etdirən rəsm əsərini yerləşdirdik. Nəşr rus, ingilis dillərində çap olundu, London, Stokholm, Moskva, Bakı və İsraildə təqdimatı keçirildi. Bütün təqdimatlarda diasporumuzun nümayəndələri iştirak etdilər. Beləliklə, kitab müxtəlif müəlliflərin əsərlərini bir üz qabığı altında birləşdirməklə, həm də dünya azərbaycanlılarını da öz ətrafında birləşdirdi... “Qarabağ şikəstəsi” miniatür kitabımız isə 4 dildə nəşr olunub. Bir nüsxəsi Bakıda İçərişəhərdəki Miniatür Kitablar Muzeyində saxlanılır. Həmin kitabı alman dilinə məşhur tərcüməçi və şərqşünas Michael Hess tərcümə edib. Kitab həm alman oxucular, həm də Almaniyada yaşayan azərbaycanlılar üçün əlçatandır. Eyni zamanda 2018-ci ildə ingilis dilində əslən qarabağlı olan Heydər Camalın “The heart of Karabakh” şeirlər kitabını çap etdirdik. Tərcüməçisi Amerikanın Houston əyalətində yaşayan həmvətənimiz Gulnara Hall olan nəşrin təqdimatını isə İsveçdə fəaliyyət göstərən “Azerbaijanis Congress of Sweden” təşkilatının dəstəyi ilə Stokholm şəhərində keçirdik. Bütün bu sadaladığım tədbirlər, layihələr bir daha göstərir ki, “Natəvan” cəmiyyəti təkcə Çexiyada deyil, bütün dünyada yaşayan azərbaycanlıların həmrəyliyi naminə, onları birləşdirmək, bir araya gətirmək amalı ilə çalışır...



Həmvətənimiz “Natəvan” cəmiyyətinin çəkdiyi filmlərdən də bəhs edərək bildirir ki, pandemiya dövründə İspaniya və Almaniyada yaşayan azərbaycanlı (ailəsi Naxçıvandandır) Azər Ağalarovla qısametrajlı film çəkdik. “Beyond the wall” adlı həmin film beynəlxalq kino festivallarda (Nyu-York, London, Vankuver, Roma, Venesiya, Çikaqo, İstanbul və sair) 14 mükafat nominasiyası qazanıb. Filmi “Natəvan” cəmiyyəti bu yaxınlarda Praqada Çexiya azərbaycanlılarının konfransında təqdim edib, 200-dən çox azərbaycanlı onu izləyib. Ümumiyyətlə, cəmiyyətin belə təşəbbüskarlıq nümunələri çoxdur...

Başqa bir nümunə olaraq “İmmolatio” tamaşasını göstərə bilərəm. Mən bu pyesi iki həmyaşıdın, xalqların dahi övladlarının – İmadəddin Nəsimi və Yan Husənin taleyini, ideyalarını birləşdirmək qərarına gələrək yazdım. Tamaşa Vaqif Əsədovun quruluşunda və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən Beynəlxalq Nəsimi Festivalı çərçivəsində Azərbaycanda təqdim olunub. Səhnə əsəri həm dünyanın müxtəlif ölkələrindən festivala gələn azərbaycanlılar, həm də şəhər sakinləri və qonaqları, eləcə də Azərbaycandakı diplomatik korpusun nümayəndələri tərəfindən böyük rəğbətlə qarşılanıb. Ümumiyyətlə, gördüyümüz bütün işlər, reallaşdırdığımız layihələr həm dünya azərbaycanlılarını, həm də Azərbaycan tarixi, ədəbiyyatı, mədəniyyəti ilə maraqlanan insanları birləşdirir.

Fikrimi fəaliyyətimin əsas devizinə çevirdiyim ifadə ilə bitirmək istəyirəm: dünyanın ən yaxşı səfiri mədəniyyətdir. Dünyaya ən təsirli mesajı isə söz çatdırır...

**Nail ƏSGƏROV**

## Sosial sığorta haqları üzrə daxilolmalar 12,2 faiz artıb

Naxçıvan Muxtar Respublikasında 2023-cü ilin yanvar-noyabr ayları ərzində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 132,1 milyon manatdan çox olub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 12,2 faiz və ya 14,4 milyon manat çoxdur. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 2022-ci ilin eyni dövrünə nisbətən 21,3 faiz artaraq 39,9 milyon manat təşkil edib.

2023-cü ilin 11 ayında işsizlikdən sığorta haqları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 16,5 faiz artaraq 3,5 milyon manatdan çox olub. Həmin dövrdə icbari tibbi sığorta haqları üzrə daxilolmalar 21,9 milyon manatdan çox olmaqla ötən ilin eyni dövrünə nisbətən 5,8 faiz artıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## *“Poliqon”* gənclərin hərbi-vətənpərvərlik düşərgəsi başa çatıb



Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Quba rayonu ərazisində “Poliqon” gənclərin hərbi-vətənpərvərlik düşərgəsi təşkil olunub. Öncəkilərdən fərqli olaraq muxtar respublikamız ilk dəfə ölkə miqyaslı düşərgədə rekord heyətlə təmsil olunub. Belə ki, düşərgəyə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin 3 nümayəndəsi və 60 gəncimiz qatılıb.

Proqrama uyğun olaraq iştirakçılar ilk gün Fəxri xiyabanı və Şəhidlər xiyabanını, o cümlədən Ümummilli Lider Heydər Əliyevin abidəsini və şəhid məzarlarını ziyarət edib, ehtiramlarını ifadə ediblər. Hərbi simulyativ formatda olan layihəyə əsasən ölkənin müxtəlif regionlarından olan 100 gəncin iştirakı ilə 3 gün müddətində müxtəlif təlimlər, idman yarışları, nəzəri və praktiki tapşırıqların icrası, Vətən müharibəsi iştirakçıları ilə görüşlər və hərb oyunları keçirilib.

Gənclərə vətənpərvərlik ruhunun aşılanması və şanlı Zəfər tariximizin təbliğinə xidmət edən düşərgədə iştirakçılar komandalara bölünərək qələbə uğrunda mübarizə aparıblar. İlk üç yerin sahibi olan heyətlər və fəal iştirakçılar kubok, sertifikat və hədiyyələrlə mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

***Bildiriş***

“MARS GROOP LLC” Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətini dayandırdığından ləğv olunur.

***İtmişdir***

Şərur rayonunun Kürçülü kənd sakini Kərimova Yasəmən Hacı qızının adına olan JN-158 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Sirab kənd sakini Həsənov Elxan Qənbər oğlunun adına olan JN-442B nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Vayxır kəndində yaşamış Məmmədov Məmmədqulu Firudin oğlunun adına verilmiş JN-274A nömrəli, 10313018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor müavini: MƏMMƏD BABAYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 719